Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

**“BMT-nin Ticarət prosedurlarının sadələşdirilməsi məsələləri üzrə qlobal tədqiqatı”**nda Azərbaycanın mövqeyi

# İSLAHAT İCMALI



**Bakı-2021**

# MÜNDƏRİCAT


"BMT-nin ticarət prosedurlarının sadələşdirilməsi məsələləri üzrə qlobal tədqiqatı" haqqında ........ 2

2021-ci il üçün Ticarət prosedurlarının sadələşdirilməsi səviyyəsinə görə Azərbaycanın mövqeyinin müqayisəli təhlili ........ 4

Azərbaycan ticarət prosedurlarının sadələşdirilməsi məsələləri üzrə MDB ölkələri arasında və regionda liderdir ........ 5

Reytinqin alt indikatorları üzrə Azərbaycanın göstəriciləri ........ 6

Azərbaycanın nəticələrinin illər üzrə dinamikası ........ 7

Azərbaycanın mövqeyinin yaxşılaşdırılmasına xidmət edən islahatlar ........ 8

# “BMT-nin TİCARƏT PROSEDURLARININ SADƏLƏŞDİRİLMƏSİ məsələləri üzrə qlobal tədqiqatı” haqqında

Rəqəmsal texnologiyalar və ticarətin davamlı inkişafına dair BMT-nin tədqiqatı 2015-ci ildən bəri Birləşmiş Millətlər Təşkilatının Regional Komissiyaları (UNRCs) tərəfindən UNCTAD, ICC, OECD və bir çox digər təşkilatlarla əməkdaşlıq çərçivəsində həyata keçirilir.

Tədqiqat nəticəsində formalaşdırılan reytinq, cəmi 58 meyar olmaqla, “Ümumdünya Ticarət Təşkilatının (ÜTT) Ticarət prosedurlarının sadələşdirilməsi haqqında” Sazişi (TFA) və “Asiya-Sakit Okean regionunda transsərhəd kağızsız ticarət prosedurlarının sadələşdirilməsi” Sazişinə aid olan 140-dan çox ölkə və 50 meyarı, eyni zamanda, ticarətin davamlı sadələşdirilməsi meyarlarını (Kiçik və orta sahibkarlıq müəssisələri (KOSM), kənd təsərrüfatı, qadınlar üçün) əhatə edir.

# “BMT-nin TİCARƏT PROSEDURLARININ SADƏLƏŞDİRİLMƏSİ məsələləri üzrə qlobal tədqiqatı” haqqında

**Tədqiqat 5 alt indikator üzrə qiymətləndirilir:**

1. Şəffaflıq
2. Rəsmi qaydalar
3. Kağızsız ticarət
4. Transsərhəd kağızsız ticarət
5. İnstitusional tənzimləmə və əməkdaşlıq

**Metodologiyada 4 mümkün nəticəyə əsasən qiymətləndirilmə aparılır:**

1. İcra olunmayıb
2. Planlaşdırma mərhələsindədir
3. Qismən icra olunub
4. Tam icra olunub

# 2021-ci il üçün Ticarət prosedurlarının sadələşdirilməsi səviyyəsinə görə Azərbaycanın mövqeyinin **MÜQAYİSƏLİ TƏHLİLİ**

## Ticarət prosedurlarının sadələşdirilməsi səviyyəsinə görə ölkələr üzrə göstəricilər:

- Azərbaycan - 86,02%
- Türkiyə - 86,02%
- Rusiya - 84,95%
- Gürcüstan - 82,8%
- Tacikistan - 80,54%
- İran - 77,42%
- Qazaxıstan - 72,04%
- Belarus - 72,04%
- Qırğızıstan - 69,89%
- Moldova - 62,37%
- Özbəkistan - 62,37%
- Ermənistan - 62,37%

**86,02%**



**Azərbaycan**

**84,95%**



**Rusiya**

**82,8%**



**Gürcüstan**

**77,42%**



**İran**

**62,37%**



**Ermənistan**

# Azərbaycan ticarət prosedurlarının sadələşdirilməsi məsələləri üzrə
# MDB ÖLKƏLƏRİ ARASINDA VƏ REGİONDA LİDERDİR

Azərbaycan cari ilin tədqiqatının nəticələrində 2019-cu il ilə müqayisədə **5% artım** nümayiş etdirərək ümumilikdə **86,02%** ilə həm qonşu ölkələri, həm də MDB ölkələri ilə müqayisədə lider mövqedə qərarlaşmışdır.

**Azərbaycan**

**86,02%**





**Dünya üzrə ortalama**

**64,95%**



**İnkişaf etmiş ölkələr üzrə ortalama**

**81,86%**

Azərbaycan 86,02% göstərici ilə bütün dünya üzrə orta göstəricini (64,95%), inkişaf etmiş ölkələr üzrə orta göstəricini (81,86%), Cənubi və Şərqi Avropa üzrə orta göstəricini (65%) və Qafqaz və Mərkəzi Asiya üzrə orta göstəricini (68,8%) üstələmişdir.

# Reytinqin alt indikatorları üzrə Azərbaycanın **GÖSTƏRİCİLƏRİ**

Azərbaycan 2019-cu il ilə müqayisədə bu il şəffaflıq indikatoru üzrə **7%**, transsərhəd kağızsız ticarət indikatoru üzrə isə **33% artıma** nail olmuşdur.

+7%

**2019 - 2021**

+33%

**2019 - 2021**

| **100%** | **91,67%** | **88,89%** | **85,19%** | **66,67%** |
|---|---|---|---|---|



| **Şəffaflıq** | **Rəsmi qaydalar** | **İnstitusional tənzimləmə və əməkdaşlıq** | **Kağızsız ticarət** | **Transsərhəd kağızsız ticarət** |
|---|---|---|---|---|

Mənbə: https://www.untfsurvey.org/

# Azərbaycanın nəticələrinin illər üzrə **DİNAMİKASI**

**Azərbaycan bu 6 il ərzində ticarət prosedurlarının sadələşdirilməsi istiqamətində 78% artıma imza atmışdır.**




Mənbə: https://www.untfsurvey.org/

# Azərbaycanın mövqeyinin **YAXŞILAŞDIRILMASINA XİDMƏT EDƏN İSLAHATLAR**

Prezident İlham Əliyev tərəfindən bu sahədə aparılan geniş islahatlar nəticəsində “Rəqəmsal Ticarət Qovşağı” portalının yaradılması və “Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanından irəli gələn tapşırıqların yerinə yetirilməsi transsərhəd ticarət prosedurlarının sadələşdirilməsinə gətirib çıxarmış, elektron və kağızsız ticarətin, xüsusilə də, transsərhəd kağızsız ticarətin inkişafını stimullaşdırmışdır. Təsadüfi deyil ki, Azərbaycan reytinqin transsərhəd kağızsız ticarət alt indikatoru üzrə 2 il müddətinə 33% artıma nail olmuş və bu sahənin inkişaf sürətinə görə qlobal səviyyədə öncül mövqeyə sahib olmuşdur.

Gömrük sahəsində aparılmış islahatlar -“Yaşıl Dəhliz”, “Avtomatlaşdırılmış Gömrük Sistemi” və “Bir pəncərə” elektron sisteminin yaradılması, gömrük bəyannamələrinin elektron qaydada doldurulması və sertifikatların elektron formada təqdim edilməsi, eləcə də, gömrük rüsumları və vergilərinin elektron formada ödənilməsi Azərbaycanda ticarət prosedurlarının sadələşdirilməsinə xidmət etmiş və reytinqdə də “tam icra” kimi qiymətləndirilərək mövqeyimizin yaxşılaşdırılmasına gətirib çıxarmışdır.

Eyni zamanda, Azərbaycanın 20 fevral 2021-ci il tarixindən qüvvəyə minən “Asiya-Sakit Okeanında Sərhədlərarası Kağızsız Ticarətin Asanlaşdırılması Çərçivə Sazişi”ni imzalayan ilk dövlətlərdən olması da qlobal müstəvidə ölkənin bu sahədə mövqeyinin yaxşılaşdırılmasına öz müsbət töhfəsini vermişdir.

